**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
_____________dos. Zaur Məmmədov
“____” ______ 2025-ci il

## Fənn sillabusu

**İxtisas:** 050117-Tarix və coğrafiya müəllimliyi A+B
**Fakültə**: Tarix-coğrafiya və incəsənət
**Kafedra:** Pedaqogika, psixologiya və incəsənət
**I. Fənn haqqında məlumat**:
**Fənnin adı**: Pedaqogika-1
**Fənn proqramı:** *Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin 04 sentyabr 2024-cü il tarixli 3-29/3-2-575 F/2024 N:-li əmri ilə təsdiq edilmişdir.2020-ci il Dövlət standartlarına uyğun.*
**Kodu:** İPF-B01.1
**Tədris ili:** III (2025-2026) Semestr: V
**Tədris yükü:** Cəmi-150, Auditoriya - 45 saat (30 saat mühazirə, 15saat seminar),
**Tədris forması:** Əyani
**AKTS üzrə kredit:** 5 kredit
**II. Müəllim haqqında məlumat:**
**Adı, soyadı, dərəcəsi:** *ped.ü.f.d. dos. Cəfərov Sahil Nizam oğlu*
**Kafedranın ünvanı**: Lənkəran ş., Ə.Məmmədov küçəsi 19, LDU-nun 2 saylı korpusu
**E-mail ünvanı:** ceferovsahil610@gmail.com
**III. Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**
**Əsas ədəbiyyat:**

1. H.Əhmədov, N.Zeynalova Pedaqogika Bakı, 2019
2. Ə.M.Abbasov, İ.A.Cavadov, B.O.İbadov Kurikulum bələdçisi: izahlar və tətbiqlər Bakı, 2020
3. Ə.Paşayev,F.Rüstəmov.Pedaqogika.Yeni kurs.Bakı,2007.
4. A.Həsənov, Ə.Ağayev. Pedaqogika. Bakı, 2007.
5. Ə.Ağayev, Y.Talıbov, A.Eminov, İ.İsayev. Pedaqogika. Bakı, 2006.
6. Ə.Ağayev. Təlim prosesi: Ənənə və müasirlik. Bakı, 2006.
7. F.Sadıqov. Pedaqogika. Bakı, 2009.
8. A.Abbasov, H.Əlizadə. Pedaqogika. Bakı, 2000.
9. F.İbrahimov, R.Hüseynzadə. Pedaqogika. I-II cild. Bakı, 2013.
10. L.Qasımova. Pedaqogika. Bakı, 2012
11. M.İsmixanov. Pedaqogikanın əsasları. Bakı, 2008.
12. F.Allahverdiyeva, S.Tağıyeva. Pedaqogika. Bakı, 2018

**Əlavə ədəbiyyat:**

13. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu.Bakı, 2009.
14. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. Azərbaycan Respublikası Nazirlər kobinitinin 29 sentyabr 2020 ci il 361 saylı qərarı.
15. İ.Həsənov, A.Rüstəmova, N.Babayeva Kurikulum Bakı,2020
16. A.Qəhrəmanov “Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə” təlim kursunun iştirakçilari üçün təlim materialı. Bakı, 2012.
17. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası //Azərbaycan məktəbi, 2013, № 5.
18. Z.Veysova. Fəal və interaktiv təlim. Bakı, 2007.

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa fənlərin tədris olunmasına zərurət yoxdur.
**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin tədris olunmasına zərurət yoxdur
**VI. Fənnin təsviri və məqsədi:**
Pedaqogika-1 kursunun tədrisi III tədris ilinin V semestrində (30 saat mühazirə məşğələsi, 30 saat seminar) nəzərdə tutulur. Kursun tədrisində məqsəd tələbələrə pedaqogika elminin təşəkkülü və inkişaf tarixi haqqında məlumat verilməsi, təlim, tərbiyə, təhsil, inkişaf anlayışlarının mahiyyətinin və bu proseslərlə əlaqədar kriteriyaların izah olunmasıdır.
Kursun tədrisi üçün ayrılan saatlar dairəsində müasir məktəbin məqsədi, müəllimin pedaqoji qabiliyyətlərinin xarakterik cəhətləri açıqlanır. Bununla yanaşı, Azərbaycan Respublikasının təhsil sistemi və kurikulum haqqında məlumat, şəxsiyyətin inkişafının ümumi qanunauyğunluğu, didaktikanın təhsil və təlim nəzəriyyəsi kimi xarakteristikası, təlim prosesinin idraki və psixoloji əsasları, təlimin prinsipləri, metodları və təşkili formalarının, yeni təlim texnologiyalarının əsas mahiyyəti, pedaqoji proses, pedaqoji innovasiyalar, təlimin amilləri, öyrənmə motivasiyası, təlimin diaqnostikası, şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsi məsələləri izah olunur.
**VII Davamiyyətə verilən tələblər:**
Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.
**VIII Qiymətləndirmə:**

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar məşğələsində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə verilir.
Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.
Qiymət meyarları aşağıdakılardır:
*-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*
*-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*
*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*
*-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*
*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*
*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*
*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*
*-3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*
*-1-2 bal- tələbənin mövzudan* qismən xəbəri var.
-0 bal- suala cavab yoxdur.
Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.
Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| Ümumi balların cəmi | Qiymət (sözlə) | Hərflə |
|---|---|---|
| 91 – 100 | əla | (A) |
| 81 – 90 | çox yaxşı | (B) |
| 71 – 80 | Yaxşı | (C) |
| 61 – 70 | Kafi | (D) |
| 51 – 60 | qənaətbəxş | (E) |
| 51- baldan aşağı | qeyri-kafi | (F) |

**IX. Davranış qaydalarının pozulması:**
Tələbə universitetin daxili nizam-intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək**.**
**X. Təqvim-mövzu planı:** 30 saat mühazirə, 15 saat seminar

| N | Keçilən mövzuların məzmunu | Müh | Sem | Tarix |
|---|---|---|---|---|
| 1 | **Mövzu.**Pedaqogikanın predmeti və vəzifələri<br>***Plan:*** Pedaqogika elminin yaranması və inkişafı.Pedaqogika elminin obyekti, predmeti və əsas kateqoriyaları.Pedaqogikanın anlayışlar sistemi: təlim, tərbiyə, təhsil, inkişaf, pedaqoji proses.Pedaqogikanın mənbələri və vəzifələri.Pedaqoji elmlər sistemi.<br>***Mənbə:*** [1;3;6;8;9;12] | 2 | 2 | |
| 2 | **Mövzu.**Pedaqogikanın metodologiyası və tədqiqat metodları<br>***Plan:***Tədqiqatın metodologiyası və onun prinsipləri. Pedaqoji təqiqat metodları: emprik tədqiqat metodları; nəzəri tədqiqat metodları; empirik-nəzəri tədqiqat metodları; riyazi, statistik, sosioloji metodlar.<br>***Mənbə:*** [1;3;6;8;10;11] | 2 | | |
| 3 | **Mövzu.**Şəxsiyyətin inkişafının ümumi qanunauyğunluqları<br>***Plan:*** Şəxsiyyətin inkişafı prosesi və onun əsas istiqamətləri. Şəxsiyyətin inkişafına dair nəzəriyyələr. Şəxsiyyətin inkişafında irsiyyətin rolu. İnsanın inkişafı və formalaşmasında mühitin rolu.Şəxsiyyətin formalaşmasında təhsil-tərbiyəetmənin rolu.<br>***Mənbə:*** [1;2;3;7;8;12;15] | 2 | 2 | |
| 4 | **Mövzu.**Şəxsiyyətin inkişafının yaş və fərdi xüsusiyyətləri<br>**Plan:** Şəxsiyyətin yaş dövrləri və fərdi xüsusiyyətləri.<br>Akselerasiya problemi və inkişafın qeyri-bərabərliyi.<br>Məktəb yaşı dövrünün xarakteristikası: kicik yaş dövrü; orta yaş dövrü; böyük yaş dövrü.<br>Uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması.<br>***Mənbə:*** [1;2;3;8;9;10;11;15] | 2 | | |
| 5 | **Mövzu.**Pedaqoji proses və pedaqoji innovasiyalar<br>***Plan:*** Pedaqoji prosesin mahiyyəti.Pedaqoji proses bir sistem kimi.Pedaqoji prosesin mərhələləri.<br>İnnovasiyanın mahiyyəti. Pedaqoji sistemin təkmilləşdirilməsinin əsas yolları.Təlim-tərbiyə prosesini optimallaşdırmaq üçün müəllimlərdən tələb olunan şəxsi keyfiyyətlər.<br>***Mənbə:***[1;2;3;8;9;10;11;15;18] | 2 | 2 | |
| 6 | **Mövzu.**Müasir məktəbin müəllimi<br>***Plan:*** Müəllimin funksiyaları.Müəllimə verilən tələblər.<br>Müəllimin pedaqoji bacarıq və qabiliyyətləri.<br>Müəllimin pedaqoji ustalığı və pedaqoji mərifəti. | 2 | | |

| | | | | |
|---|---|---|---|---|
| | Təhsilverənlərin etik davranış qaydaları.<br>***Mənbə:*** [1;2;4;7;8;10;11;15] | | | |
| 7 | **Mövzu.**Azərbaycan Respublikasının təhsil sistemi<br>***Plan:*** Təhsil sistemi haqqında anlayış. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri. Azərbaycan Respublikasında təhsil sisteminin quruluşu və təhsil proqramı (kurikulum).<br>***Mənbə:***[2;8;10;12;13;15;17;18] | 2 | 2 | |
| 8 | **Mövzu**. Azərbaycanda kurikulum islahatı<br>***Plan:***Kurikulum anlayışı. İlk fənn kurikulumlarının meydana gəlməsi.Azərbaycanda kurikulum islahatının başlanması. Kurikulum islahatının mərhələləri. Kurikulumların xarakterinə görə növləri: fənyönümlü kurikulumlar; şəxsiyyətyönümlü kurikulumlar**.**<br>***Mənbə***:[1;2;11;13;14;15;18] | 2 | | |
| 9 | **Mövzu**. Fənn kurikulumunun strukturu<br>***Plan:*** Fənnin məzmunu, ümumi təlim nəticələri, məzmun xətti, məzmun standartı, təlim strategiyası, ümumi təhsilin təşkilinə dair ümumi pedaqoji tələblər, təlimin forma və üsulları, müəllim fəaliyyətinin planlaşdırılması, məzmun standartlarının şərhi,şagird nailiyyətlərinin qiymətləndirilməsi.<br>***Mənbə:***[1;2;3;9;11;14;15;18] | 2 | 2 | |
| 10 | **Mövzu.**Didaktika. Təhsil və təlim nəzəriyyəsi<br>***Plan:*** Didaktikanın mahiyyəti və elmi nəzəri əsasları.Təhsil anlayışının mahiyyəti. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları.Təhsilin məzmunu və onu əks etdirən sənədlər. Təlimin mahiyyəti və funksiyaları.<br>***Mənbə:*** [1;2;3;8;9;10;15;16] | 2 | | |
| 11 | **Mövzu.**Təlimin qanunauyğunluqları və prinsipləri<br>***Plan:***Təlim prosesinin komponentləri: təlim komponenti; idraki komponent; psixoloji komponent; sosioloji komponent; təşkilati komponent;Təlimin ümumi qanunları (qanunauyğun əlaqələri).Təlim prinsiplərinin təsnifatı.Təlim prinsiplərinin səciyyəsi və vəhdəti: təlimin həyatla əlaqələndirilməsi prinsipi; təlimin təhsilverici, tərbiyəedici və inkişafetdirici prinsipi; elmilik prinsipi; təlimdə Təlimdə sistematiklik və ardıcıllıq prinsipi; təlimdə əyanilik prinsipi; təlimdə şüurluluq, fəallıq və müstəqillik prinsipi; təlimin optimal təşkili prinsipi; təlimin müvafiqlik prinsipi.<br>***Mənbə:*** [1;3;6;9;10;12] | 2 | 2 | |
| 12 | **Mövzu.**Təlimin metodları<br>***Plan:*** Təlim metodları anlayışı və onların təsnifatı.<br>Təlimin metodlarının səciyyəsi və əlaqəli tətbiqi: təsəvvürlərin formalaşdırılması (qavrama) metodları; nəzəri biliyin (anlayış və qanunların) mənimsədilməsi metodları; bacarıq və vərdişlərin formalaşdırılması (tətbiqetmə) metodları; təlimdə nəzarət metodları.<br>Təlim metodlarının əlaqəli tətbiqi və təlimin vasitələri.<br>***Mənbə:*** [2;3;6;8;9;10;11] | 2 | 2 | |
| 13 | **Mövzu.**Yeni təlim texnologiyaları<br>***Plan:*** Təlim texnologiyaları haqqında anlayış. Pedaqoji texnologiyaların təsnifatı: təlim texnologiyası; tərbiyə texnologyası; inkişaf texnologiyası; diaqnostika texnologiyası. Təlim texnologiyalarının yaradılması və tətbiqi prinsipləri.Yeni təlim texnologiyalarının təşkili formaları.İnteraktiv təlim metodları.<br>***Mənbə:*** [2;3;5;7;8;11;12;16] | 2 | | |
| 14 | **Mövzu.**Təlimin növləri və təşkili formaları<br>***Plan:*** Təlimin növləri: izahlı-illüstrativ təlim (ənənəvi təlim); problemli təlim; proqramlaşdırılmış təlim; kompüter təlimi. Təlimdə müxtəlif yanaşmalar: passiv ənənəvi təlim;müasir fəal təlim;yeni interaktiv təlim.Təlimin təşkili formalarının tarixi.Dərs təlimin əsas təşkili forması kimi. Müəllimin dərsə hazırlaşması, onun mərhələləri.<br>Müasir dərsə verilən tələblər. Təlimin təşkilinin digər formaları.<br>***Mənbə:*** [1;2;3;5;6;8;9;15] | 2 | | |
| 15 | **Mövzu.**Təlimdə diaqnostika, nəzarət və qiymətləndirmə<br>***Plan:*** Şagirdin öyrənmə səviyyəsinin diaqnostikası.<br>Şagirdlərin yetirməsinin diaqnostikasının və ona nəzarətin prinsipləri: obyektivlik, sistematiklik, əyanilik (aşkarlıq), bərabərlik, ədalətlilik,şəffavlıq,məqsədəuyğunluq, konfidensiallıq, əməkdaşlıq, effektivlik,validlik(uyğunluq),etibarlılıq. Şagirdlərin bilik və bacarıqlarının diaqnostlaşdırılması, yoxlanılması və qiymətləndirilməsinin ardıcıllığı:cari yoxlama; təkrar yoxlama; dövri yoxlama; yekun yoxlama. kompleks yoxlama.Nəzarət formaları: ilkin, cari, tematik və yekun nəzarət. Qiymətləndirmənin ümumi prisipləri. Qiymətləndirmə motivləri.Qiymətləndirmə standartları. | 2 | 1 | |

| | | | | |
|---|---|---|---|---|
| | ***Mənbə:*** [2;3;8;9;14;15;16] | | | |
| | **Cəmi: 45 saat** | **30 s.** | **15 s.** | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**

Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:
- informasiya mənbəyi ilə işin bacarıq və vərdişi;
- müqayisə, ümumiləşdirmə və sistemləşdirmə;
- konkretləşdirmə, sübut və rəddetmə, ziddiyyətləri görmə bacarığı;
- təhliletmə bacarıq və vərdişlərin formalaşdırılması.

Öyrənən tanış olur:
- ümumpedaqoji bacarıq və vərdişlərlə;
- müasir təlim prinsip və metodları ilə;
- kurikulum proqramı ilə;
- müasir dərsə verilən pedaqoji tələblərlə;
- yeni təlim texnologiyaları ilə;
- təlimin təşkili formaları ilə;
- şagird nailiyyətinin qiymətləndirilməsi məsələləri ilə.

**XII. Fənn üzrə təlim nəticələri:**

-cəmiyyətdə müəllimlik peşəsinin sosial əhəmiyyətini dərk edir
-təlim, tərbiyə və sosiallaşma prosesinin nüfuz etdiyi müxtəlif kontekstləri(sosial, mədəni, milli) izah edir;
-peşə vəzifələrini yerinə yetirmək üçün pedaqoji və psixoloji diaqnostik metodlardan istifadə edir;
-pedaqoji prosesin təşkilində müasir texnologiyalardan istifadə etməklə dərsin strukturunu qurur;
-müasir təhsil konsepsiyalarını sistemli şəkildə təşkil edir;
-pedaqoji fəaliyyətin subyektləri ilə əməkdaşlık münasibətləri qurur;
-pedaqoji cəhətdən məqsədyönlü, psixoloji cəhətdən təhlükəsiz təhsil mühiti yaradır;
-təhsilalanların sinifdənkənar fəaliyyətini təşkil edir;
-müasir təhsil quruculuğunda və məktəb sistemində keçmişin mütərrəqi irsindən, pedaqoq və mütəffəkirlərin bu günümüz üçün dəyərli ideyalarından müqayisəli şəkildə istifadə edir.

**XIII. İmtahan sualları:**

1. Pedaqogika elminin yaranması və inkişafı
2. Pedaqogika elminin obyekti, predmeti və əsas kateqoriyaları
3. Pedaqogika elminin anlayışlar sistemi: təlim, tərbiyə, təhsil, inkişaf, pedaqoji proses
4. Pedaqogikanın mənbələri və vəzifələri
5. Pedaqoji elmlər sistemi
6. Pedaqogika elminin tədqiqat metodları
7. Şəxsiyyət və onun inkişafı
8. Şəxsiyyətin inkişafına təsir edən amillər: irsiyyət, mühit, tərbiyə
9. Şəxsiyyətin inkişafında yaş dövrləri və yaş xüsusiyyətləri
10. Pedaqoji prosesin mahiyyəti və mərhələləri
11. Pedaqoji innovasiyalar və onların mahiyyəti
12. Müəllimin funksiyaları
13. Müəllimin pedaqoji bacarıq və qabiliyyətləri
14. Təhsilverənlərin etik davranış qaydaları
15. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu
16. Azərbaycan Respublikasında təhsil sisteminin quruluşu və təhsil proqramı (kurikulum)
17. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri
18. Azərbaycanda kurikulum islahatı
19. Fənn kurikulumu və onun strukturu
20. Təlim strategiyası və onun quruluşu
21. Kurukulumun prinsipləri və xarakterinə görə növləri
22. Ümumi təhsilin təşkilinə verilən ümumi pedaqoji tələblər
23. Didaktika – təhsil və təlim nəzəriyyəsi kimi
24. Təhsilin məzmunu anlayışı və onun ümumi əsasları
25. Təhsilin məzmununu əks etdirən sənədlər
26. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları
27. Təlim prosesinin mahiyyəti və funksiyaları
28. Təlimin məqsəd və vəzifələri
29. Təlimin prinsiplərinin təsnifatı və mahiyyəti
30. Təlim prinsiplərinin səciyyəsi və vəhdəti
31. Təlimin metodları anlayışı və onların təsnifatı
32. Təlim metodlarının səciyyəsi
33. Təlimin təşkili formalarının tarixi
34. Dərs – təlimin əsas təşkili forması kimi
35. Dərsin tipləri və mərhələləri
36. Dərsə verilən müasir tələblər
37. Təlimin təşkilinin digər formaları
38. İnteraktiv və fəal təlim metodları

39. Təlim texnologiyalarının yaradılması və tətbiqi prinsipləri
40. Təlimdə nəzarət və qiymətləndirmə

**XIV. Kollekvium sualları:**
**I Kollekvium sualları**

1. Pedaqogika elminin yaranması və inkişafı
2. Pedaqogika elminin obyekti, predmeti və əsas kateqoriyaları
3. Pedaqogika elminin anlayışlar sistemi: təlim, tərbiyə, təhsil, inkişaf, pedaqoji proses
4. Pedaqogikanın mənbələri və pedaqoji elmlər sistemi
5. Pedaqoji təqiqat metodları: emprik, nəzəri, empirik-nəzəri, riyazi, statistik, sosioloji metodlar
6. Şəxsiyyət və onun inkişafı prosesinə dair nəzəriyyələr
7. Pedaqoji prosesin mahiyyəti və mərhələləri
8. Müəllimin funksiyaları
9. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu
10. Azərbaycan Respublikasında təhsil sisteminin quruluşu və təhsil proqramı (kurikulum)

**II Kollekvium sualları**

1. Azərbaycanda kurikulum islahatı
2. Təlim strategiyası və onun quruluşu
3. Ümumi təhsilin təşkilinə verilən ümumi pedaqoji tələblər
4. Didaktika-təhsil və təlim nəzəriyyəsi kimi
5. Təhsilin məzmunu anlayışı və onun ümumi əsasları
6. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları
7. Təlim prosesinin mahiyyəti
8. Təlimin məqsəd və vəzifələri
9. Təlimin prinsiplərinin təsnifatı və mahiyyəti
10. Təlimin metodları anlayışı və onların təsnifatı

***"Pedaqogika-1" fənninin sillabusu 050117-" Tarix və coğrafiya müəllimliyi" ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.Sillabus "Pedaqogika, psixologiya və incəsənət" kafedrasının 12 sentyabr 2025-ci il tarixli iclasında (protokol №01) müzakirə edilərək təsdiq edilmişdir.***

Fənn müəllimi: dos. S.N.Cəfərov

Kafedra müdiri: dos. A.X.Əliyev